# Abdulla Şaiqlə Səməd Vurğun necə oldu ki, bacanaq oldular?

*Səmədi ilk dəfə görəndə 14 yaşım var idi. Həmin an heç ağlıma da gəlməzdi ki, məndən iki addım o yanda - qonaq otağında tanınmış ədiblərlə yanaşı əyləşən qaraşın oğlan gələcək taleyimin*



*məhəbbət çırağını yandıracaq. Artıq o vaxtlar Səmədi poeziyasından tanıyırdım. Kitabları yenicə nəşr edilmişdi, mən də dərc edilən bəzi şerlərini əzbərdən bilirdim. Ümumiyyətlə, şair və yazıçıların çapdan yenicə çıxan əsərlərini alıb oxumaq bizim gəncliyimizdə fəxr sayılardı.*

*O gün bacımla həyat yoldaşı Abdulla Şaiq övladlığa götürdükləri Himmət Əlizadənin toy məclisinə hazırlıq görürdülər. Çoxlu qonağımız vardı. Məktəbdən təzəcə gəlmişdim. Çantamı yerə qoyan kimi bacım göstəriş verdi ki, qonaqlara mane olmamaları üçün uşaqların başını qatım. Məktəbli formamı əynimdən çıxarmamış səsli-küylü uşaqları öz otağıma apardım. Ara qapını örtərkən Səməd məni görüb Abdulla Şaiqdən soruşdu:*

*- Şaiq əfəndi, bu qız kimdir?*

*- Baldızımdır - Xavər. Amma övladımız kimidir.*

*Şaiqin bu cavabından sonra Səməd əlavə bir kəlmə də danışmadı. Gəlini gətirmək məqamı çatanda evdən yalnız böyüklərin çıxdığını görəndə isə dedi:*

*- Şaiq əfəndi, nə olar, qoy o qız da maşına əyləşsin...*

*Şaiq əfəndi də Səmədin az qala yalvarışa bənzəyən xahişinə təəccüb qaldı. Çünki ailəmizin daxili qanunlarına görə, azyaşlılar böyüklərin icazəsi olmadan onlarla birlikdə əyləşməz, toy və nişan məclislərinə getməzdi. Bacım yuxarı qalxıb onlarla gəlin gətirməyə gedəcəyimi söylədi. Əslində, gözlənilməz təklifdən özümü itirib nə edəcəyimi bilmirdim. Həyəcandan az qalırdım ağlayam. Ancaq Şaiq əfəndinin sözündən çıxmayıb maşına əyləşdim. Gəlini evimizə gətirdik və bu şərəfə məclis quruldu. Yenə öz otağıma keçmək istəyirdim ki, Səmədin səsi gəldi:*

*- Şaiq əfəndi, bəs Xavər xanım bizimlə əyləşməyəcək?*

*Onda hiss etdim ki, Şaiq əfəndinin Səmədə hörməti hədsiz olduğundan istəklərinə qarşı çıxa bilmir. Odur ki, bir söz demədən əlimdən tutub məni masa arxasında Səmədlə üzbəüz əyləşdirdi. Özümü necə aparacağımı bilmədiyimdən və utandığımdan qıp-qırmızı qızarıb süfrənin saçaqlarını hörürdüm. Şairsə gözünü üzümdən çəkmirdi. Ertəsi günü bacım bizə gəlib anama dedi:*

*- Ana, Səməd Xavərə vurulub. Deyir ki, onunla evlənmək istəyirəm...*

*Anam da eşitdiyi xəbərdən diksinib cavab verdi:*

*- Nə danışırsınız? Xavər uşaqdır, hələ heç yeddiillik məktəbi belə bitirməyib!*

*Elə həmin gün Səməd bacımın böyük oğlu, sonralar tanınmış elm xadimi olacaq Kamalı (Talıbzadə) dilə tutub onun vasitəsilə mənə məktub göndərdi. Yazırdı ki, gəl görüşək… Çox müzakirələrdən sonra Səmədin fikrindən dönmədiyini görüb qərara aldılar ki, son söz mənim olsun. Çünki Səməd inad edirmiş ki, əgər mənimlə şəxsən görüşsə, onunla evlənməyə razılıq verəcəm. Nəhayət, görüşümüz Şaiq əfəndigildə təşkil olundu. Otaqda ikimiz oturmuşduq, şair indiyədək keçirdiyi çətin və əzablı həyat yolundan danışıb, kasıb olduğuna görə qızların onunla ailə qurmaqdan imtina etdikləri haqqında danışırdı:*

*- Xavər, indiyədək o qədər qız istəmişəm, ancaq onlardan heç biri mənimlə ailə qurmaq istəməyib. Sən də razı olmasan, özümü öldürəcəm.*

*Həmin an ona yazığım gəldi. Elə qorxdum ki, birdən özünü öldürər, mən də heç vaxt xoşbəxt olmaram. Uşaq idim də... Aramızda 12 il yaş fərqi var idi. Təsirlənib elə ağladım ki, hönkürtümə qonşu otaqdan bacımla Şaiq əfəndi də gəldilər.*

*Bacım bu izdivaca könülsüz yanaşdığımı düşünüb dedi:*

*- Xavər, sənin ərə gedən vaxtın deyil, istəmirsənsə, razı olma! Səni zorla məcbur edən yoxdur. Ağlama!*

*Atam isə lap narahat olmuşdu:*

*- Ağlama, qızım, sən istəyəndən sonra qapımıza elçiliyə yolçu da gəlsə verəcəm...*

*Məni səhv anladıqlarını başa düşüb uşaqcasına dedim:*

*- Yox, mən başqa şey üçün ağlayıram. Gərək biz Səməd Vurğunu çoxdan tanıyaydıq, atam ona kömək edib yemək-içmək verəydi. Yazıq, gör nə qədər kasıbçılıq çəkib. Günlərlə ac qalıb. Heç ona ərə getmək istəyən də olmayıb.*

*Bunları burnumu çəkə-çəkə söyləyərkən hamı şaqqıltı ilə gülürdü. Həmin axşam Səməd aramızda poçtalyonluq edən Kamalla göndərdiyi məktubda yazdı: «Ilk dəfə üzümə gülən sən oldun, şairin qədrini bilən sən oldun. O gün qapınızı döydü çoxları, sənsə dedin, ölməz sənətkar, mənim ölməzlərə məhəbbətim var».*

*Ümumiyyətlə, razılığımı aldığı gündən ta ölənədək Səməd mənə çoxlu şeir həsr etmişdi. Onunla evlənməyə razılıq verməyimin səbəbi məhəbbət deyildi. O yaşda uşaqda nə məhəbbət ola bilər ki? Sadəcə, kimsəsiz şairə yazığım gəlmişdi. Səmədin iki kitabı işıq üzü görsə də, çox kasıb idi. Böyüklər evlənməyimizə razılıq verdikdən sonra Səməd tez-tez bizə gəlib-getməyə başladı. Ad günümə gələndə üzərində gözlə zorla görünən təkqaş brilyant üzük bağışladı. O üzük də mənim nişan üzüyüm oldu. Beləliklə, nişanlandıq. Buna baxmayaraq, əvvəlkitək dərslərimi oxumaqda davam edir, Səmədin görüşə çağıran məktublarına cavab vermirdim. Hətta bunun üçün Kamalı tənbeh də etmişdim ki, yığışdır poçtalyonluq etməyi, bir də mənə Səmədin məktublarını gətirmə. Görüşə çıxsam, müəllimlərim və sinif yoldaşlarım görər, biabır olaram. ... Belə cavab verməyimə baxmayaraq, şerlə yazılan məktubların sayı çoxaldıqca içimdə şairə qarşı qəribə hisslər yaranırdı. Bilmirəm, buna məhəbbət demək olardı, ya yox. Ancaq qarlı qış axşamlarında Səməd bizdən çıxıb evinə çatanadək gözlərimə yuxu getməz, yatağımın içində oturar və anamdan soruşardım:*

*- Ay ana, görəsən, Səməd evinə çatdı?*

*Dayımın qızı isə anamın yerinə şən halda cəld cavab verərdi:*

*- Narahat olma, Səməd indiyə kimi bayırda qalmaz. Bilirəm gözünə niyə yuxu getmir, di bəsdir, yat...*

*...Səmədlə iki il nişanlı qaldıq. Toy günümüz indiyədək yadımdadır - 1934-cü ildə 16 yaşım tamam olan kimi bizə məclis qurdular. Toyumuzda şair və yazıçılardan Mikayıl Müşfiq, Hüseyn Cavid, Mirzə Ibrahimov, Sabit Rəhman, Mehdi Hüseyn, Cəfər Xəndan, Yusif Vəzir Çəmənzəminli, Yazıçılar Ittifaqının sədri Məmməd Kazım Ələkbərli və digər tanınmış şəxslər iştirak edirdilər. Anam bizə təmtəraqlı süfrə açmışdı. Rəhmətlik Əhməd Cavad məclisdə tamadalıq edir, xanəndə Hüseynağa Hacıbəyov oxuduğu gözəl mahnılarla toyu rövnəqləndirir, Qurban Pirimov isə tarda onu müşayiət edirdi. Lakin toyumda başqa qızlar kimi mənə nə qırmızı xonça gəlmişdi, nə də hədiyyə...*



*Ağ gəlinlik paltarı geyinib saçlarıma ağ çiçək taxmışdım. O gündən Səməd mənə «cananım», mən isə ona «şairim» deyə müraciət edirdik.*

*Birgə ailə həyatına yenicə başlasaq da, yeni evə ayağım düşərli olmuşdu. Təkgözlü otağımız sevinclə, məhəbbətlə çağlayırdı. Səməd məni elə sevirdi ki, Məcnun onun yanında yalan olmuşdu. Ölən gününədək də Səmədlə «can» deyib «can» eşitdik.*

*Ailə qurduqdan sonra təhsilimi yarımçıq qoymaq istəsəm də, Səməd razı olmadı. Hətta dərslərimi yaxşı oxuyum deyə, qulluqçu da tapdı. Ev işlərindən azad olduğumdan qayğılarım azalmışdı. Bir gün dərsdən evə dönəndə Səmədin pəncərədə dayanıb yolumu gözlədiyini gördüm. Nədənsə həmişəki kimi ardımca gəlməmişdi deyə, Səməddən bir az incik idim. Pilləkənlərin başında məni qarşılayıb gözlərimi yummağı xahiş etdi. Sonra da qucağına alıb mənzilimizə apardı. Ayaqlarım yerə dəyəndə gözlərimi açmağa icazə verdi. Aman Allah, əvvəlcə elə bildim ki, gördüklərim yuxudur... Yox, buna yuxu demək olmazdı. Səməd yanımda dayanıb xoşbəxtcəsinə gülümsəyirdi. Mənzilimizin döşəməsinə 30 manatlıq əsginaslardan sanki xalça salınmışdı. Səməd çaşqınlığımı görüb əlimdən tutdu və pulların üzəri ilə yeriməyimi israr etdi. Sonra da dedi ki, bəs «xalça»mız «Yevgeni Onegin»in tərcüməsinə verilmiş qonorardır.*

Xalq şari Səməd Vurğunun həyat yoldaşı Xavər Vəkilovanın vaxtilə "El" jurnalına verdiyi müsahibəsi. "El" jurnalı (dekabr, 2003)

**Şəkildə: A.Şaiq həyat yoldaşı Xavərin böyük bacısı Şahzadə xanımla**